**Bakı şəhəri** **23.11.2012**

**“Bakı Fond Birjası” QSC-nin İdarə Heyətinin yığıncağının 05 noyabr 2012-ci il tarixli 2 saylı protokulundan çıxarış**

“Bakı Fond Birjası” QSC-nin İdarə Heyətinin yığıncağının 05 noyabr 2012-ci il tarixli 2 saylı protokulu ilə BFB-də market meyker fəliayyəti üzrə meyker fəaliyyətinin predmeti olan qiymətli kağızlar, alış kotirovkasının minimal həcmi və qiymət dəhlizinə dair aşağıdakılar qərara alındı:

1. “Bakı Fond Birjası” QSC-də Market meyker fəaliyyətinin predmeti olan qiymətli kağızlar aşağıdakılardan ibarət olmaqla təsdiq edilsin:
   1-ci qrup qiymətli kağızlar – Bakı Fond Birjasında ticarətə buraxılmış və dövriyyə müddəti Market meykerin öhdəliklərinin qüvvədə olma müddətinə bərabər və ya ondan az olan Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət İstiqrazları, Azərbaycan Respublikası Mərkəzi Bankının notları və Azərbaycan İpoteka Fondunun istiqrazları;
   2-ci qrup qiymətli kağızlar – Bakı Fond Birjasında ticarətə buraxılmış və dövriyyə müddəti Market meykerin öhdəliklərinin qüvvədə olma müddətinə bərabər və ya ondan az olan digər emitentlər tərəfindən emissiya edilmiş korporativ istiqrazlar və səhmlər.

2. “Bakı Fond Birjası” QSC-də Market meyker fəaliyyəti üzrə alış kotirovkasının minimal həcmi aşağıdakı qaydada təsdiq edilsin:
   1-ci qrup qiymətli kağızlar (Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət İstiqrazları, Azərbaycan Respublikası Mərkəzi Bankının notları və Azərbaycan İpoteka Fondunun istiqrazları) üzrə 1 500 000 manat (bir milyon beş yüz min manat);
   2-ci qrup qiymətli kağızlar (digər emitentlər tərəfindən emissiya edilmiş korporativ istiqrazlar və səhmlər) üzrə 200 000 manat (iki yüz min manat).

3. “Bakı Fond Birjası” QSC-də Market meyker tərəfindən təqdim edilən alış və satış üzrə qiymət dəhlizi aşağıdakı qaydada təsdiq edilsin:

1-ci qrup qiymətli kağızlar (Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət İstiqrazları, Azərbaycan Respublikası Mərkəzi Bankının notları və Azərbaycan İpoteka Fondunun istiqrazları) üzrə 3%;
2-ci qrup qiymətli kağızlar (digər emitentlər tərəfindən emissiya edilmiş korporativ istiqrazlar və səhmlər) üzrə 5%.

**Yığıncağın Sədri** **Emin Əliyev**

**Yığıncağın katibi** **Ləman Qurbanova**